Hikmət Məlikzadə

# "Vətən ana kimidi; həyası sudan duru"



* * *

Kölgən artıq qocalıb, gendə gəzir axta kimi,
Niyə ah-vay eləyirsən yenə yaş taxta kimi?

Qəlbi eşq atəşi yaxmazdı qabaqlar, niyə bəs
Dondurusan məni vaxtında düşən şaxta kimi?

Şeytanı vəsf eləməkdən bez, ey insan, dəxi o
Eh, bir az ciddi olur, sonra bir az saxta kimi.

Necə dövran idi, səndin, sora məndim, sora sən...
Söylə, hardaydı bu zillət bu yanıq vaxta kimi?

Sorma məndən yenə, Hikmət, niyə minbərdədi qəm,
Niyə aləm görünür gözlərimə laxta kimi...

* * *

Əlli ildi qorxaq gözlərini buluda dikib
göy adlı vakuumda nə axtarırsan, zavallı kişi?
Bu dünya zurnalı, qavallı, kişi.
Mısmırığını sallayan adama heç nə verməzlər.
Əvvəlin gəlmədisə, axırın da gəlməz.
Əlini qaşının üstünə yapışdırıb
mağmın-mağmın boz çöllüklərə də baxma,
Baxma, kişi, baxma, naxırın gəlməz...
Hansı dərd səni yaraladı, bədbəxt?
Allah da səni özündən araladı, bədbəxt.
Boş yerə əllərini cam eləmə.
Boş yerə dodaqlarını gəmirmə quru əppək kimi.
Yaraşıqlı villaların böyründə
cəhənnəm gözətçisinin komasına bənzər,
üstü-başı yamaqlı bir daxman var,
Onu da başına uçuracaqlar məhkəmə qərarı ilə.
Niyə ağırlıq edirsən camaata?
Sən bu cahana səhv gəlmisən bəlkə də.
Yerin-yurdun, Allah bilir haradı.
Əlin üzündən, günün güzəranından qaradı,
Sən, ey balasının qarşısında suala,
Özünün qarşısında işığa dönən adam,
Duaları alışan kimi sönən adam,
Səndən iyrənir hamı.
Səndən hürkür bu varlı təbəqə.
Get olmalı olduğun yerə.
Görünmə bu ifritələr arasında.
Kimsə, bəlkə də haradasa yas tutar,
deyər: belə bir adam vardı -
əməli düz, bəxti yırtıq...

* * *

Ruhu xəstə adamın içindən
bir yığın təlatüm çıxar əzabı gəriləndə.
Qaranlıq çağı bir kölgə hirsli-hirsli
bir ona baxar, bir özünə...
Nəfsi ac adam da günahı
papiros kötüyü kimi təpər gözünə.
Nəfsi ac adam çörəyi tapdayar, nəfsini boğmaz;
Belə adamın arvadı halal uşaq doğmaz...
Cəhalət bələlərini kor qoyub qum fırtınası kimi.
Sözüm sənədi, rəzil: - Əzrayıl gələndə,
ikisifət ola bilmir ha, adam.
Ya Adəm ol, ya adam...

* * *

Şəklimin üstə düşən ağ ləkəli qan kimisən,
Əzrayıldan qaçıb asudə gəzən can kimisən.
Çox gözəl surətə malik pərisən, taleyə bax,
Həm də qoynunda bulud cilvələnən dan kimisən.

Başın üstündə əcəl dövr edə pərvanəsayaq,
Sənə kim kölgə tutar, qosqoca şeytan kimisən.
Sandın, ellər sənə məftun olub, azdın o ki, var,
Çox ucuz qiymətə ehsan edilən şan kimisən.

Hikməti yüz dəfə dandın, ama Allah acıdı,
İndi bildim, niyə edam qoxulu an kimisən.

* * *

Bir qəflət acısı qədər bulanıqdı həyat,
Ac adamların ac itlərə bənzər halı yox.
Ehtiras cənnət qoxusu verir kürreyi-ərzə.
Qısır yamaclarda namaz qılır yaz dumanı.
Qoca qayaların neçə gündü şalı yox -
Sanki külək at oynadıb nizamsız dərələrdə.
Qəm yemə, edam kötükləri güvə tutmur,
Dərd, əvvəlcə ikiaylıq çağa ağırlığında olur,
Naşılıq etsən, şişir, artır.
Hamını qara sevdalara bir günah dartır.
Bəzən Tanrı da adamı qınamağa bəhanə tapmır,
Çünki sevgi vaxtsız əcəl kimi gəldiyi üçün
O, ya aşiq olmağa məcburdu, ya şeytan.
Təəssüf, ona görk olmur iməklədiyi vaxtlar.
Bəlkə hərə öz içində bir özgə "mən"di?!
Bəlkə ayrılığın vəsfidi nəm vida yaylıqları?!

* * *

Qara çoxdu baxtında,
Cənnət gəzmə taxtında.
Bu qiyamət vaxtında
Çoband a çox, qoyun da.

Hanı nar ağacları,
Soldu bar ağacları?
Çoxdu dar ağacları -
Vurulası boyun da.

...Qismət də biryolluqdu,
Geri getmə, kolluqdu.
Biz tərəfdə bolluqdu,
Hoqqa da çox, oyun da.

### Çox demişdim pul yoxdursa, sevgi yox...

Güvə tutub sevda yolum, kənar gəz,
Bu sərt dərdə döz, günümə ağlayım.
Səni məndən alacaqlar nə vaxtsa,
Qoy vaxt varkən öz günümə ağlayım.

Çox demişdim pul yoxdursa, sevgi yox,
Bax, sən indi çırpınırsan tələdə...
Həyat başdan lal duyğudu, eh, ayıl,
Nədən mənə inanmırsan hələ də?

Bir yol çıxıb qarşı səmtdə önünə,
Çalış, dönmə eşq var deyə, geri sən.
Məndən sənə çəpər olmaz, əzizim,
Yavaş-yavaş öz baxtına yeri sən.

Əzrayıla can vermirəm acıqca,
O da məni adam bilib aradıb...
...Tanrı səni mənim üçün deyil, qız,
Məndən yaxşı biri üçün yaradıb.

Mən daş ikən köz olmuşam nədənsə,
Mənim qəlbim yoxsulluqlar adası.
Hələ vaxt var, öz yoluna köç elə,
Allaha da acıq gedir, qadası...

* * *

Əzaba keşik olur,
Ev olur, eşik olur,
Günaha beşik olur
şeh qadınlar, qadınlar.

Sudu, yeldi - havadı,
Duyğu kimi yavadı.
Bəzən sirdi, davadı
meh qadınlar, qadınlar.

...Yoxluq zamanı keçdi,
Hərə bir ünvan seçdi.
Sizsiz bu həyat heçdi...
Eh qadınlar, qadınlar.

### Yuxuda yazdığım şeir

Vətən ana kimidi; həyası sudan duru,
Sevib-oxşayanı çox, dayağı isə birdi...
Uğrunda can verənlər əbədi ölməz oldu...
...Qarşıdakı küçədə şivən qopdu qəfildən,
Gözlərini açanda qız gördü atasının
Ayaqqabısı iki, ayağı isə birdi.
Ağlamaq istəmədi, göz yaşı dondu sanki,
Balaca əllərilə dua etdi Allaha.
...O qız şəhid qızıtək düşdü dilə-ağıza,
"Vətən" yazdı hər dəfə bir parça ağ kağıza...

* * *

Ruhum hürkək işıldaböcək kimi dəli,
Qaranlıqlar qorxu vadisində çırpınan boş beşik.
Uşaq səsinə həsrət bir qadının
Allaha yalvarışı nə qədər acı...
İçimi yandırır teleqraf dirəyində bardaş qurmuş
ac yapalağın tox baxışında səyriyən cəhənnəm sızıltısı.
Həyat türmə əzabı qədər rəngsiz.
Günahı olmadığı halda
tutulmaqdan ağır dərdi olmaz adamın.
Adamlar torpağa yükdü bəlkə də.
Torpağın tapdanmaq planı çoxdan dolub.
Sanki günahla adam arasında müharibə olub...
Bayırda qoyma elçi daşımı.
Mərdimazarın yekəsi, balacası olmur.
Daha nazlı gözəllər «vəsf» eləmir dul aşığı.
Unutma, hər yaddaşın bir xatirə şəkli var,
Hər şəklin də bir xatirə bulaşığı.
Bir vaxtlar burda sevgi küçəsi vardı,
Hərə bir daş atırdı qərib elçilərə.
İndi o küçədə sevgi sadəcə bir nağıldı.
O küçənin qərib elçiləri də dağıldı.
İndi orada günah cücərdir axmaq vücudlar.
İndi o küçədə təkcə sən paksan, yorğun qadın.

* * *

Şeytan hər adamdan təmənna güdməz,
Kimlər ki, qəm içir, zəli sayılmır.
Sənə kim deyib ki, dəlisən, boş ver,
Sevda dəliləri dəli sayılmır.

Yaman tərs baxırsan cırıq şəklimə,
Kim bilir, o şəkil yadındı bəlkə?
Gözünün önündə dilənən qadın
Küçəyə atdığın qadındı bəlkə?

Hər künc bir günahın bitdiyi yerdi,
Ölmək əzrayıla yan almaq deyil.
Pərvanə şam üstə can vermir, çünki
Şamın qəsd-qərəzi can almaq deyil.

Tanrı bir qapıda min ünvan görür,
Qapının ağzına tük asma, gecdir.
Adam şəkil olur öləndən sonra,
Ürəyə bu qədər yük asma, gecdir.

Təsbeh də, dua da baş aldatmaqdır,
Pula qul olanın imanı olmur.
Sən qəmi özünə öyrətmə, quzum,
Eşq sirli adadı, limanı olmur.

Sevda qarğışı var hər sevən qəlbdə,
Gizlin vidasıdı su, ayrılığın.
Bəlkə biz bir daha görüşməyək heç?
Bəlkə vaxtı çatıb bu ayrılığın?!

* * *

Duz yüküdür kir adama.
Nicat verməz pir, adama...
Mənim kimi bir adama
Çox vurdular pəl, ey qatar,
Zaman ötür, gəl, ey qatar!

Həyat bir ağ ilmədi ki...
Tale qəmin silmədi ki...
Atam-anam bilmədi ki,
Mən - söz adlı ləl, ey qatar,
Zaman ötür, gəl, ey qatar!

Hədəf uzaq, ox darıxır...
Ac darıxır, tox darıxır...
Ruhum məndən çox darıxır,
Gendən elə əl, ey qatar,
Zaman ötür, gəl, ey qatar!

**2021**